T Ü R K O L O G İ Y A

№ 2 2022

YAZILI ABİDƏLƏR
ПИСЬМЕННЫЕ ПАМЯТНИКИ
WRITTEN MONUMENTS

*DARXAN XIDIRƏLİ (Qazaxıstan)*[*]
*ALTANGERELİN ENXTOR (Monqolustan)*[**]
*NAPİL BAZILXAN (Qazaxıstan)*[***]
*NURBOLAT BOQENBAYEV (Qazaxıstan)*[****]
*TSERENXANDİN BUYANHİŞİQ (Monqolustan)*[*****]
*QONÇİQİN BATBOLD (Monqolustan)* [******]

# QUTLUQ XAQAN ABİDƏ KOMPLEKSİ VƏ YAZILI KİTABƏSİ

(Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutunun "Nomqon – 2019, 2022" ortaq nümayəndə heyətinin ilkin elmi hesabatı)

## Xülasə

Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutunun birgə heyəti Monqolustanın Arxanqay rayonunun Xaşat Sum bölgəsinin Nomqon düzündə 2019 və 2022-ci illərdə qazıntılar apararaq qədim türk dövrünə aid doqquz abidə kompleksində arxeoloji kəşflərə imza atıb. "Nomqon – 2" kompleksində aparılan qazıntılar zamanı ortaya çıxan abidə kompleksinin İkinci Şərqi Göytürk xaqanlığının qurucusu, 682-692-ci illərdə hökmdarlıq etmiş, Bilgə xaqan və Kültiginin atası İltəriş xaqanın (Qutluq xaqan) şərəfinə tikildiyi düşünülür.

Qazıntı çalışmaları zamanı abidə kompleksindən xaqan şəklində bir heykəlin baş və gövdə hissəsi, iki qoç, balaları ilə birlikdə düzəldilmiş şir heykəli, dam kirəmitləri, kərpiclər, ortası dəlik olan sunaq daşı və "əşir" (aşina) xaqan nəslinin damğası kimi müxtəlif tapıntılar ortaya çıxmışdır. Bu kəşfi dünya türkologiyasında əhəmiyyətli edən əsas özəlliyi isə qazıntı sahəsindən tapılan yazılı abidə parçasıdır. Bu, bölgədə aparılan tədqiqatlarda tapılan ilk kitabə olması baxımından əhəmiyyətlidir. Kitabənin yuxarı hissəsində iki canavar və lotosşəkilli çiçək təsvir edilmişdir. Yazıda üç fərqli dilə aid - qədim türkcə, soğdca və brahmi dillərinə aid mətnlərin olduğu müəyyən edilmişdir. Abidənin postamenti olduğu anlaşılan tısbağa heykəli də tapıntılar arasında yer alır.

[*] Beynəlxalq Türk Akademiyası prezidenti, tarix üzrə elmlər doktoru, professor. E-mail: office@twesco.org
[**] Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutu, Orta Əsrlər Şöbəsinin Müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent. E-mail: aenkhtur2001n@gmail.com
[***] Beynəlxalq Türk Akademiyasının mütəxəssisi, tarix üzrə fəlsəfə doktoru. E-mail: napilbaz@gmail.com
[****] Beynəlxalq Türk Akademiyasının mütəxəssisi, tarix üzrə fəlsəfə doktoru. E-mail: nurik198080@mail.ru
[*****] Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutu, Orta Əsrlər Şöbəsinin mütəxəssisi, magistrant. E-mail: buyaka345@gmail.com
[******] Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutu, Orta Əsrlər Şöbəsinin mütəxəssisi, tarix üzrə fəlsəfə doktoru. E-mail: boldoog@gmail.com

**Açar sözlər:** *Qutluq xaqan, İltəriş xaqan, qədim türk yazısı, soqd yazısı, brahmi yazısı, yazılı abidə, kitabə, abidə kompleksi, ritual kompleksi, şir və qoç heykəlləri, sunaq daşı, tısbağa postamenti, kirəmitlər, kərpiclər.*

## Giriş

### Abidə kompleksinin tapıldığı bölgə (Nomqon)

Monqolustanın Arxanqay rayonunun Xaşat Sum bölgəsində "Nomqoni Xöndi" adlı düzdə qədim türklərə aid doqquz abidə kompleksi mövcuddur. Nomqon düzü şimal qərbində Ix Nomqon dağı, cənub şərqində isə Baqa Nomqon dağı ilə əhatələnib. Abidə komplekslərin şimal ucunda "Xöqnö-xan" adı verilən sıldırım zirvələri olan yüksək dağ da yerləşir. Bu dağın önündə - cənubda isə "Elsen tasarxay" (Qum parçaları) adlı qum təpəlikləri qərbdən şərqə doğru onlarca kilometr boyunca uzanır. Və Tarna çayı bu qum təpələrinin cənubundan axır.

### Araşdırmaların tarixi

"Nomqon" abidə kompleksi ilk dəfə 2000-ci ildə Monqolustanın tanınmış arxeoloqu, tarix elmlər doktoru, professor Dovdoyn Bayar tərəfindən yerli məktəbin bədən tərbiyəsi müəllimi Q.Dondov vasitəsilə aşkar edilərək (Баяр, 2010) kəşf xəbəri (Bayar, 2012: 6-25) dərc edilmişdir (Баяр, 2014: 106-112). 2001-ci ildə arxeoloq A.Enxtor bu kompleksləri xüsusi şəkildə tədqiq edərək çəkim işlərini etmiş və 9 monumental kompleksin ümumi xüsusiyyətlərini "Nomqon-1-9" kimi sənədləşdirmişdir (Энхтөр, 2001: 25). Daha sonra 2007-ci ildə A.Oçir, Ts.Odbatar, L.Erdenebold, B.Anxbayar tərəfindən bu bölgə ümumi şəkildə tədqiq edilmişdir (Очир; Одбаатар; Эрдэнэболд; Анхбаяр, 2009: 35-47). 2012-ci ildə isə Nomqon düzündəki abidə kompleksləri Monqolustan Mədəni İrs Mərkəzi (Энхбат; Даваацэрэн; Болд, 2013: 86) tərəfindən araşdırılıb (Энхбат; Анхсанаа; Даваацэрэн, 2013: 86).

Yerli əhalinin dediyinə görə, Nomqon düzündə qədim zamanlardan bəri varlılar və qüdrətlilər yaşamışlar, 1930-cu illərdə qırmızı kommunistlər isə ilk müsadirə fəaliyyətlərinə məhz buradan başlamışlar.

Bu monumental komplekslərdə indiyə qədər heç bir ətraflı elmi tədqiqat və arxeoloji qazıntılar aparılmamışdır. Bu araşdırmada Nomqon düzündəki abidə kompleksləri aşağıdakı ardıcıllıqla nəzərdən keçirəcəyik. Qeyd edək ki, adıçəkilən komplekslərin heykəlləri və abidə daşları orijinal yerlərindən çox fərqli yerlərə aparılmış və dəyişdirilmişdir.

### "Nomqon – 1" abidə kompleksi

Nomqon düzündəki digər abidə komplekslərindən cənub-şərqdə yerləşən "Nomqon – 1" düzdəki ilk kompleksdir. Kompleksdə başı və qolları əskik olan, kəməri və ayaq dabanları aydın görünən, xaqan heykəli olduğu anlaşılan heykəl mövcuddur. Səthindəki torpaqdan anlaşılır ki, kompleks kvadrat formadadır. Sıralanmış balballarıin da yer aldığı monumental kompleksin balballarının bir çoxu itmişdir.

**“Nomqon – 2” abidə kompleksi**

“Nomqon-1” kompleksindən 500 metr şimalda yerləşir. Torpağın quruluşundan aydın görünür ki, kvadrat formada tikilmişdir. Kompleksdə sunaq daşı, qoç heykəli və müxtəlif heykəl parçaları ilə balballar mövcuddur.

**“Nomqon – 3” abidə kompleksi**

“Nomqon-2” kompleksindən 350 metr qərbdə yerləşir. Kompleksdə sanduqəyə aid olduğu anlaşılan iki yastı daş aydın görünür.

**“Nomqon – 4” abidə kompleksi**

“Nomqon-3” kompleksindən 200 metr qərbdə yerləşir. Kompleks aşağı səviyyəli torpaq üzərində tikilmişdir. Bu kompleksdə 2 sanduqə (sarkofaq) daşı, 2 insan heykəli, 1 şir heykəli və 1 dikinə daş var.

**“Nomqon – 5” abidə kompleksi**

“Nomqon-4” kompleksindən 500 metr qərbdə yerləşir. Kompleksdə iki sanduqə (sarkofaq) daşı və şərqə baxan bir dikinə balbal var.

**“Nomqon – 6” abidə kompleksi**

“Nomqon-5” kompleksindən 400 metr qərbdə yerləşir. Kompleksdə 1 sanduqə (sarkofaq) daşı var.

**“Nomqon – 7” abidə kompleksi**

“Nomqon-6” kompleksindən 500 metr qərbdə yerləşir. Kompleksdə iki insan heykəli parçası və iki ədəd aslan heykəli parçası var. Bu kompleksdən 62 metr məsafədə 2 ədəd insan fiqurlu heykəl, 3 ədəd heykəl parçası və 1 sanduqə daşı yerləşir.

**“Nomqon – 8” abidə kompleksi**

“Nomqon-7” kompleksindən 1,2 km şimal-qərbdə yerləşir. Abidə kompleksində 2 insan fiqurlu heykəl və 1 şir fiqurlu heykəl var.

**“Nomqon – 9” abidə kompleksi**

“Nomqon-8” kompleksindən 3,2 km şimalda yerləşir. Baqa Nomqon dağının zirvəsində yerləşən abidə kompleksi daş qalaqları şəklindədir. Qazıntılar nəticəsində kompleksin strukturunu aydın şəkildə aşkar etmək mümkündür.

**Məqsəd**

Yuxarıda qısaca izah edilən 9 monumental kompleksdə ilk arxeoloji qazıntıların aparılması məqsədi ilə birgə tədqiqatlara 2019-cu ildə başlanılıb. Araşdırmalara sunaq daşının mövcudluğuna görə xaqana məxsus olduğu hesab edilən Nomqon-2 abidə kompleksindən başlamaq qərara alınmışdır. Nomqon düzündə aparılan tədqiqatların məqsədi genişmiqyaslı arxeoloji qazıntılar apararaq ərazidəki komplekslərin quruluşunu və digər hissələrini aşkara çıxarıb onların özəlliklərini öyrənmək, abidə komplekslərin yaranma tarixlərini müəyyən etmək, qədim türk abidə komplekslərinin mədəniyyət baxımından önəmini ortaya qoymaqdır.

**Tədqiqat metodları**

Bilgə xaqan və Kül tigin abidəsindən təxminən 60 km aralıda yerləşən Nomqon abidə komplekslərində aparılan arxeoloji qazıntılarda stratiqrafik, topo-

qrafik, kartoqrafik, müqayisəli-tipoloji, mədəni səviyyə, tarixi-müqayisəli, epiqrafik tədqiqat metodlarından daha çox istifadə edilmişdir. Qazıntının hər mərhələsində qazıntı yeri və tapıntılar fotoşəkil və çəkimlərlə sənədləşdirilib. Bundan əlavə, dronlardan istifadə edərək qabaqcıl texnologiya ilə 100-400 m hündürlükdən foto və videolar çəkilmişdir. Qazıntı sahəsində tapılan heyvan sümükləri radiokarbon analizi üçün laboratoriyalara göndərilmişdir. Qədim türk, soqd və brahmi yazılarının sənədləşdirilməsi və tədqiqi zamanı müqayisəli-arxeoqrafik üsullardan istifadə edilmişdir.

## Nəticələr

### "Nomqon – 2" abidə kompleksindəki 2019-cu il arxeoloji qazıntıları"[1]

Abidə kompleksinin ümumi sahəsi 60 metr uzunluğunda, 40 metr enindədir. Qazıntı zamanı kompleksdən ilk öncə qoç heykəli və sunaq daşı aşkar edilib. Külliyənin qərbdən şərqə doğru uzanan dörd tərəfi xəndək və sıxılmış torpaqdan hörülmüş divarlarla əhatə olunmuşdu. Əraziyə səpələnmiş kərpic parçalarından və gil səki qalıqlarından məlum olur ki, monumental kompleksdə bir vaxtlar qapısı olan üstü dam ilə örtülü bark tikilisi olub. Kompleksin qərb tərəfində isə ortasında deşik olan sunaq daşı vardır.

Monumental kompleksin xarici hissəsi mavi qranit daşdan hazırlanmış balballarla əhatə olunub. Bu balbalların yer üstündə olanlarının sayı 11-dir. Küliyənin qarşısından isə şərqə doğru 47 ədəd balbal tapılmışdır. Bu balbalların hamısı yıxılmış haldadır. Bəzi balballar torpağa basdırılıb və sındırılıb. Yerə basdırılmış bəzi balbalların ancaq kənarları görünür. Bu balballardan ikisində xaqan sülaləsinin "əşir" ("aşina") (Мөнхтулга, 2019: 633-637) damğası tapılmışdır.

2019-cu ildə aparılan qazıntılar zamanı iki balası olan şir heykəli, sunaq daşı, bark tikilisinə aid olduğu düşünülən müxtəlif keramika parçaları, bir ədəd qoç heykəli və digər əşyalar aşkar edilib.

Ümumiyyətlə, "Nomqon-2" abidə kompleksi həm memarlıq xüsusiyyətlərinə, həm də buradakı əsərlərə görə Bilgə xaqan və Kül tığın (Сэр-Оджав, 1979: 8) komplekslərinə (heykəl (Jisl, 1960: 64, 86-115) sunaq daşı, şir, qoç heykəli və digər hissələrinə görə) bənzəyir. Qazıntılarımızdakı tapıntıları nəzərə alsaq, bu monumental kompleksin qədim türk dövründə tikildiyinə və xaqana məxsus olduğuna şübhə etmirik.

### İki balası olan erkək şir heykəli

Heykəldə bədəninin aşağı hissəsində iki balasını qoruyan erkək aslan təsvir edilib. Şir oturmuş vəziyyətdə, hər iki qulağı arxaya çevrilmiş şəkildədir. Geniş

[1] "Nomqon – 2019" birgə qazıntı işlərinə Beynəlxalq Türk Akademiyası adından Darxan Kıdırəli, Napil Bazılxan, Nurbolat Boqenbayev və Monqolustan Elmlər Akademiyasının Tarix və Arxeologiya İnstitutunun heyətindən dos. Altangerelin Enxtor, məsləhətçi arxeoloq Monqolustan Elmlər Akademiyasının Arxeoloji Tədqiqatlar Mərkəzinin direktoru Dəmdinsurengin Tsevendorj (1949-2022), arxeoloqlar Sarantuyaqin Dalantayn, Tserenxandin Buyanhişiq, Nyamhüqin Mönxbat qatılmışdır. Əlavə olaraq, Monqolustan Təhsil Universiteti Tarix Fakültəsi tələbələri də qazıntı araşdırma qrupunda iştirak etmişdir. Ərazidə 1-30 iyul 2019-cu il tarixləri arasında 30 gün müddətində qazıntı işləri aparılmışdır.

açıq ağzından boş bir dil və açılan dişlər aydın görünür. Üçkünc saqqalı sanki küləkdə yellənib sinəsinə yapışıb. Gözləri qorxu hisləri ilə təsvir edilmişdir. Aslanın qulaqları, gözləri, yal və quyruğu aydın görünür. Arxa sağ və sol ayaqlar irəli baxır. Quyruq aslanın arxasındadır, yalını göstərir. Heykələ diqqətlə baxanda ağzı açıq, dişləri aydın görünən şir şəklinin bir növ dünyanı (obyekti) qoruduğunu qeyd etmək yanlış olmaz. Sənətkar bu əsərlə abidə heykəltəraşlıq sənətini daha üst səviyyəyə yüksəldib. Şərq və Qərb ölkələrinin mifologiyalarında şir "güclü, qüvvətli, qorxunc heyvan" semantikası ilə qaranlıq qüvvələrə, şərlərə qarşı qoruyucu olarak bilinmişdir. Köçərilər arasında şir şəkli hakim təbəqənin gücünün və hiyləgərliyinin simvolik əlamətidir. Qeyd edək ki, qədim türk dövründə şir motivinə ancaq xaqan abidə komplekslərində rast gəlinir. Bu səbəbdən də şir heykəlləri xaqan sülaləsi və hökmdarlarının abidə ərazilərindəki rituallarına xas obyektlər kimi qəbul edilə bilər.

**Xaqan sülaləsinin balballardakı simvolu: "əşir" (aşina) damğası**

"Nomqon – 2" abidə kompleksində şərqə doğru uzanan 47 balbal aşkar edilib. 2019-cu ildəki qazıntıda birinci və beşinci balbal daşları üzərində "Əşir" (Aşina) xaqan sülaləsinin damğaları tapılmışdır (Кыдырəлi; Цэвээндорж; Энхтөр; Базылхан; Даланта; Бөгенбаев; Буянхишиг, 2019).

2022-ci ildə aparılan qazıntı işlərində postament olan tısbağa heykəlin tapıldığı bölmənin yanında daha bir böyük balbal aşkar edilib. Abidə kompleksində ən böyük və ilk olan bu balbalda da xaqan sülaləsinin simvolu "Əşir" (Aşina) damğası təsbit edilib.

Beləliklə, abidə kompleksindəki balballarların sayı 48-ə çatıb. Yuxarıda adı çəkilən birinci və beşinci balballarla, 16 nömrəli balbalda qazıntı zamanı Göytürk xaqan sülaləsinə aid "Əşir" (Aşina) damğası mövcuddur. Bunlardan əlavə, 20 nömrəli balbalda ay şəklində bir damğa da təsbit edilib.

**2022-ci ildə "Nomqon-2" abidə kompleksində arxeoloji qazıntılar[2]**

2022-ci il qazıntıları 2019-cu ilin qazıntıları tamamlandıqdan sonra qapalı sektorların açılması və təmizlənməsi ilə başladı. Qazıntı sahəsində müvafiq sektorlar üzrə qrunt təmizlənmiş və müəyyən edilmiş sektorlarda tədqiqatlar aparılmışdır. Ərazidə torpaq profilini və laylarını müəyyən etmək üçün abidə kompleksində bark şəklində tikili qalıqlarının sağ, sol və arxa hissələrində kəsik buraxılmış, ərazinin bu halı ilə fotoları çəkilmişdir.

2022-ci ildə aparılan qazıntılar zamanı kompleksin ümumi həcmi, xarici perimetri, xarici divarları, qapısı və s. memarlıq xüsusiyyətləri aşkar edilib. Məlum olub ki, ümumi ölçüsü 49x41,5 m olub qərbdən şərqə doğru uzanan bu kompleksin

[2] "Nomqon-2022" birgə qazıntı işlərində - Beynəlxalq Türk Akademiyasının nümayəndə heyəti adından Darxan Kıdırəli, Napil Bazılxan, Nurbolat Boqenbayev, Monqolustan Elmlər Akademiyası adından Arxeologiya İnstitutunun Orta əsrlər şöbəsinin müdiri, dos. Altangerelin Enxtor, arxeoloqlar Tserenxandin Buyanhişiq, Qonçiqin Batbold qatıldı. Altangereliin Enkhtor, arxeoloqlar Tserenxaniin Buyankhishig, Gonchigiin Batbold qoşuldu. Bundan əlavə, Monqolustan universitetlərinin Tarix fakültəsinin tələbələri də qazıntı tədqiqat qrupuna qoşulublar. Qazıntılar 28 iyul - 29 avqust 2022-ci il tarixləri arasında 30 gün ərzində aparılmışdır.

ətrafında xəndək qazılmış və hamarlanmış torpaq divarlarla əhatələnmişdir. Qeyd edək ki, külliyənin xarici mavi qranit balballarla əhatə olunub. Kompleksin qərb tərəfində ortasında deşik olan sunaq daşı da mövcuddur (Цэвээндорж; Кыдырали; Энхтөр; Напил; Далантай; Богенбае; Буянхишиг, 2019: 45). Sunaq daşının altındakı kvadrat daş platformanın dörd küncü müəyyən edilərək ölçülüb. Dördbucaqlı platformanın uzunluğunun 160 sm, eninin 80 sm, qalınlığının isə 14 sm olduğu təyin edilib.

Daha sonra bark tikilisinin damından səpələnmiş kirəmit parçaları və torpaq qalaqları təmizlənərək binanın forma və ölçüləri müəyyən edilmişdir. Sözügedən bark binasının divarlarında sıxılmış torpaqdan hörülmüş kərpiclərdən istifadə olunub, binanın çöl hissəsi isə əhənglə suvanıb. Əhəng qalıqları aydın görünür. Bark damını örtən kirəmitlər təmiz gildən hazırlanmış və çox dayanıqlıdır. Bunun üçün gil yuvarlaq taxta qəlibə tökülüb və qəlibdən çıxatdıqdan sonra iki yerə bölünüb. Beləliklə, iki oval kirəmit əldə edilib. Qəlibə qoyulmuş parçaların izləri dam örtüyünün daxili hissəsində aydın görünür. Bir parça halında günümüzə qədər gəlib çatmış kirəmitlərin uzunluğunun 34 sm, eninin 13,5 sm və qalınlığının 1,8 sm olduğu təyin edilmişdir.

Bark binasının tikintisində istifadə olunduğu aşkar edilən kərpiclərin dağılmasından barkın içinin qarət edildiyi anlaşılır. Bu kərpiclər geniş əraziyə səpələnmişdir və bu dağıntı barkın çökməsi nəticəsində yarana biləcək dağıntı deyil. Qeyd edək ki, kərpiclər bölgədə tapılan çınqıllı torpaqdan xüsusi qəlibdə düzəldilib və bişirilmişdir. Qırılmamış kərpiclərin uzunluğu 33 sm, eni 17,5 sm, qalınlığı 6,8 sm-dir.

Düşünürük ki, xaqan heykəli olduğu anlaşılan heykəl bu günə qədər dəyişməyib. Xaqan heykəli oturmuş vəziyyətdə sol əli dizinin üstündə təsvir edilmişdir. Heykəlin bel hissəsindən yuxarısı qırılıb. Belə anlaşılır ki, qarətçilər açıq-aşkar talan edildiyi bəlli olan bark binasını dağıdanda kompleksin qərb tərəfindəki heykəllər də götürülüb.

Kompleksin qərb tərəfində ortada dəlikli sunaq daşı vardır. İnsan fiqurlu heykəl, iki balası olan şir və iki qoç heykəli də tapılıb. Kompleksin qapısının şərqində isə 48 balbal var. Bu balballardan altısının üzərində xaqan nəslinə aid "Əşir" (Aşina) damğaları aşkar edilmişdir.

Yuxarıda da qeyd edildiyi kimi, abidə kompleksində insan fiqurları olan iki daş heykəl aşkar edilmişdir. Qoç heykəllərinin başları sınıqdır, qalanları yaxşı vəziyyətdədir. Bütün heykəllər solğun rəngli iridənəli qranitdən hazırlanmışdır.

Abidə kompleksində ümumilikdə 6 heykəl aşkar edilib. Bunlardan birincisi xaqanın simvolu olduğunu düşündüyümüz heykəldir. Qalan heykəllər isə müxtəlif sektorlarda parçalanmış halda tapılıb.

Kompleksin içərisində barkın qarşısında tısbağa şəklində postament aşkar edilmişdir. Fikrimizcə, şərqə baxan tısbağa postamentin ilkin mövqeyi çox dəyişilməyib. Tısbağa postamenti yaxşı vəziyyətdədir, yalnız başının üst hissəsi sınıqdır. Onun yuxarı hissəsində kitabə daşının qoyulması üçün oyuq salınmışdır. Kitabənin yerləşdirildiyi bu oyuğun uzunluğu 97,5 sm, hündürlüyü 41 sm, eni 73 sm-dir.

Qazıntı sahəsindən işlənmiş yuvarlaq daşlar, taxta qalıqlar, at və qoyun sümükləri, qurbanların bişirildiyini düşündüyümüz atəş yerinin izləri də aşkar edilmişdir. Bütün yeni aşkar edilmiş əsərlərin çəkimləri edilərək fotoşəkilləri alınmış və ətraflı elmi sənədləri tərtib edilmişdir.

2022-ci il qazıntı işlərində ən önəmli tapıntı, şübhəsiz ki, kompleksin qapısının yaxınında tapılmış yazılı abidə parçasıdır. Bu, yuxarıda adı çəkilən tısbağa postamentə oturdulmuş kitabənin üst hissəsidir.

**Qutluq xaqan yazılı abidəsinin ilk oxuması**

2022-ci ildə aparılan arxeoloji qazıntılar zamanı yuxarıda göstərilən ölçülərdə tısbağa postamentlə yazılı abidənin yuxarı hissəsinə aid sınıq parça aşkar edilmişdir. Yazılı abidə parçasının ölçüsü 70x74,5 sm, eni 19 sm-dir. Birgə qazıntı qrupu kitabənin qalan hissəsinin axtarışını 2023-cü ildə davam etdirəcəkdir.

Sözügedən yazılı abidənin hər bir üzündə (abidənin yan üzləri/ kənarları şərti olaraq I-IV olaraq nömrələnmişdir) qədim türk (runik) hərfli (I, II, IV), soqd (soqdca) hərfli (III) və brahmi hərfli (IV-1) mətnlər həkk olunmuşdur. 19 sətirldən ibarət yazılı abidə parçasının (II) 12 sətri daha yaxşı qorunub saxlanılıb, amma mətndəki bəzi hərflər isə oxumayacaq dərəcədə aşınıb silinmişdir. Qədim türk yazı sistemində mətndəki sözləri və söz qruplarını ayıran üst-üstə iki nöqtə yerinə burada üç nöqtədən istifadə edildiyi də görülür. Abidədə istifadə olunan işarə və hərflər “Çoyr”, “El etmiş yabqu (Ongin)”, “Küli çor” yazılı abidələrində istifadə olunan qədim türk yazı sistemi işarə və hərflərinə oxşardır. Bu oxşarlığına görə abidənin ən qədim yazılardan biri olduğunu söyləmək olar.

Kitabədəki soqdca mətnlər yaxşı qorunub saxlanılıb, lakin brahmi hərfli mətnlər oxunmayacaq vəziyyətdədir.

| **Yazılı abidədəki mətnlər** | | | |
|---|---|---|---|
| Üz | Sətir | | Azərbaycan dilində |
| I | Qədim türkcə mətnin transkripsiyası | | |
| | 1. | ? | |
| | 2. | ? | |
| | 3. | ? | |
| | ...? | ? | |
| II | Qədim türkcə mətnin transkripsiyası | | |
| | 1. | **ud yïl: toquzunč: ay: [ y……….]** | İnək ili: doqquzuncu ay |
| | 2. | **[al]tïm: ü[mü]n: üčünčü [ k……….]** | aldım: ...........üçüncü...... |
| | 3. | **almïš:Teŋri: oγlu: [……….]** | almış: Tanrı oğlu...... |
| | 4. | **[Q]utluγ qaγan: Türük […….…]** | Qutluq xaqan: Türk |
| | 5. | **ur oγlum: yüz yüz [……….]** | Oğlanım : yüz yüz...... |
| | 6. | **biziŋ:öŋlüg: [k……….]** | bizim: güzəl.......... |

| | | | |
|---|---|---|---|
| | 7. | **ïtdïm: bizi: yat er: [……….]** | etdim: bizi yat: er..... |
| | 8. | **yerde: qa[z].. tuz…..[……….]** | yerdə: qaz..... |
| | 9. | **tümen: tümen: [……….]** | On min: on min....... |
| | 10. | **atadïm: bin biŋdim [……….]** | At verdik: min mindim... |
| | 11. | **isig :küčüg: ber[…...........]** | işi gücü ver-.... |
| | 12. | **es[?] :qop ešti [……….]** | es: çox eşitdik........ |
| | 13-19 | **..............** | ................. |
| III | Qədim soqdca mətnin transkripsiyası | | |
| | 1. | **………** | |
| | 2. | **Qutlug x'g'n …..** | Qutluq xaqan |
| | 3. | **……** | |
| | 4. | **……** | |
| | 5. | **……** | |
| | 6. | **tti……** | |
| IV | Qədim türkcə mətnin transkripsiyası | | |
| | 1. | ? | |
| | 2. | ? | |
| | 3. | ? | |
| | ...? | ? | |
| IV-1 | Qədim brahmi hərfli mətnin transkripsiyası | | |
| | 1 | ? | |
| | 2 | ? | |
| | 3 | ? | |
| | ...? | ? | |

**Müzakirə**

"Nomqon – 2" abidə kompleksində aparılan son qazıntılardan sonra abidənin kimin və ya kimlər üçün tikildiyi məsələsi ciddi müzakirələrə səbəb olub. Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutunun 2019, 2022-ci illərdə apardığı birgə arxeoloji qazıntılarda əldə edilən yeni tapıntılara görə, bu monumental kompleksin **Qutluɣ qaɣan** > Qutluq xaqana həsr edildiyi qənaətindəyik. İltəriş xaqan 682-ci ildən sonra "Qutluq" rütbəsindən istifadə etməyə başlamış və ondan əvvəlki xaqanların belə bir adı və rütbəsi olmamışdır. Çin mənbələrində Qutluq xaqandan "...Aşina Seli (Seri) xaqan nəslinin qohumu Qudulo..." kimi bəhs edilir (2006: 179-180).

682-692-ci illərdə " **Elteriš qaɣan** > İltəriş xaqan" kimi tanınan Qutluq 10 il ərzində qardaşları Qapağan, Eletmiş Yabqu (Dusifu) və Bilgə Apa Tarkan Tonyukuk ilə Tabgaç-Çinlilərə qarşı dəfələrlə vuruşmuş və onun mübarizəsindən sonra Göktürklər müstəqillik qazanmışdır. Qutluq xaqan bütün köçəriləri mavi bayraq altında toplayıb Türk Xaqanlığını dirçəltmiş, dövlətin əsasını möhkəmləndirmiş və qüdrətli xaqanlıq kimi onu böyük dövlətə çevirmişdir.

"Nomqon – 2" abidə kompleksində tapılmış qədim türkcə yazıda "**ud yïl: toquzunč: ay** > inək ilinin doqquzuncu ayı" ifadəsi çox güman ki, 668, 680, 692-ci illərdən birinə təsadüf edir. Yazılı abidənin qalan hissəsinin tapılmasının mətndə verilən tarixin aydınlaşdırılması baxımından əhəmiyyətli olduğunu və bir çox bilinməyənlərə aydınlıq gətirəcəyini düşünürük.

Qutluq xaqan, yəni İltəriş xaqan ilə bağlı qədim türk yazılı abidələrindəki ifadələri xatırlatmaq yerinə düşərdi:

"Çoyr" abidəsi (3. sətir): **Elteriš qaγanqa qoñ yïl üčünč ay jeti-qa adïrïlïmïz** "İltəriş xaqanı qoyun ilinin üçüncü ayında itirdik".

"El etmiş yabqu (Ongin)" abidəsi (11. sətir): **Elteris: qaγanqa: adïrïlmaduq: yaŋïlmaduq: Teŋiri: sintine: qaγanta:adïrïlmalïm: azmalïm: tejin: anča: ötledim: keri: barïγma: buqadï: bilge: sintine: : ...... ..bardï: ülügen atqa: esig: küčüg: berti:** "İltəriş xaqanı itirdik, yanılmadıq, kasıb olmayalım deyə bizi müdrik bir xaqandan ayırması için Tanrıya yalvardıq. Geri döndük və qatıldıq.... Müdrik xaqanın adamları... getdilər. Əməklərimizi və gücümüzü pay ünvanına verdik".

"Tonyukuk" abidəsi (6-7. sətir): **Bilge :Tuñuquq :Boyla Baγa Tarqan: birle: Elteris qaγan: boluyu: beriye: Tabγačïγ: öŋre: Qïtañïγ:yïrïya Oγuzïγ: üküš ök:ï benurti: bilgi: ök: ertim: Čuγay quzïŋïn: Qara Qumuγ: olurur: ertimez:** "Bilgə Tonyukuk Boyla Baga Tarkan mən İltəriş xaqan ilə birlikdə, sağda tabğac, solda kitan və solda oğuzu fəth etdik. Bacarıqlı natiq idim. Çogay meşəsinin Qaraqumunda yaşayırdıq".

"Tonyukuk" abidəsi (50. sətir): **Elteris qaγanqa: ......učdï: Türük Bögü qaγanqa: Türük Bilge qaγanqa: ...** "İltəriş xaqan öldü, Türk Bögü xaqan, Türk Bilgə xaqan..."

"Tonyukuk" abidəsi (61. sətir): **Elteris qaγan: Bilge Tuñuq-uq : qazγantuq üčün: Qapaγan qaγan: Türük Ešir budun: yorïdïqï bu** "İltəriş xaqan və Bilgə Tonyukuk qazandığı üçün Qapağan xaqanın Türk Əşir xalqının inkişafı bu(dur)." (2020: 125)

Bu səbəbdən inanırıq ki, Qutluq xaqanın daha çox tanınan "İltəriş xaqan" titulu xalq arasında geniş yayılmış və ona bu şəkildə hörmət edilmişdir.

**Nəticə**

Qədim türk cəmiyyətində xaqanların şərəfinə ucaldılan bu cür abidə komplekslər və ya ritual kompleksləri əvvəlcə müqəddəs yer olaraq "qoruq" kimi qəbul edilmiş, sonralar isə "bark" adlandırılmışdır. Bu komplekslərin salındığı torpaqlar xaqanın mülkiyyətinə keçərək xüsusi olaraq qorunub saxlanılmışdır. Bu gün də yerli əhali bu yerləri müqəddəs yerlər hesab edir və qoruyub saxlayır.

Ümumiyyətlə, "Nomqon-2" külliyəsi bütün xüsusiyyətlərinə görə Bilgə xaqan və Kül tigin külliyələri ilə əhəmiyyətli oxşarlıqlar göstərməkdədir. "Nomqon-2" yazılı abidəsinin yuxarı hissəsində iki canavar başı təsvir edilmişdir. Məlumdur ki, bu cür xaqan atributları - canavar başlı şəkil Taspar xaqan, Bilgə xaqan, Kül tigin və bir sıra başqa abidələrin də təpə hissəsində həkk olunub (2018: 272).

"Nomqon-2" yazılı abidəsi Orxon abidələri kimi mühüm xaqanlıq kitabələrindən biri kimi tanınmalıdır.

Yazılı abidənin mətnindən əldə edilən məlumatlara əsasən, Nomqon abidə kompleksinin Türk xaqanlığını dirçəltmiş Kül tigin və Bilgə xaqanın atası Qutluq İltəriş xaqana ithaf edildiyi qənaətinə gəlinmişdir.

Qutluq İltəriş xaqan Türk xaqanlığını yenidən canlandırmış, Qərbdə Dəmir Qapıya, Şərqdə Böklü (Koreya) yarımadasına qədər qüdrətli bir imperiya qurmuş böyük hökmdar idi. Kül tigin yazılı abidəsində də onun haqqında belə ifadələr yer alıb:

"Türk xalqı yox olmasın deyə, xalq olsun deyə, atam İltəriş xaqanı (və) anam İlbilgə xanımı göyün təpəsindən tutub (daha) yüksəyə qaldırmışlar mütləq ki. Atam xaqan on yeddi adamla üsyan etmiş, (İltəriş) üsyan edir deyə xəbər alıb şəhərdəkilər dağa çıxmış, dağdakılar (şəhərə) enmiş, dərlənib toplanıb yetmiş kişi olmuşlar. Tanrı güc vermiş (olduğu) üçün, atam xaqanın əsgərləri qurt kimi imiş, düşmənləri (də) qoyun kimi imiş. Şərqə (və) qərbə səfər edib (adam) toplamış (və) yığmışdı. (Sonunda) hamısı yeddi yüz kişi olmuşlar. Yeddi yüz kişi olub dövlətsiz qalmış, xaqansız qalmış xalqı, kəniz olmuş, qul olmuş xalqı, türk qanun və adətləri-ni pozmuş xalqı, atalarımın, babalarımının qanununa görə (yenidən) yaratmış (və) təşkil etmişdir".

Qutluq xaqan 10 il içində Tabğaç düşmənlərinə qarşı 40-dan çox səfər etmiş, böyük döyüşlərdə orduya rəhbərlik etmiş və qələbələr qazanmış məşhur hökmdar-dır. Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının Arxeo-logiya İnstitutu yaxın vaxtlarda "Nomqon" düzündə aparılmış birgə araşdırmaların nəticələrini əhatə edən akademik nəşr hazırlayıb elm aləminin diqqətinə çatdıracaq. Akademiya türk dövlətlərinin paytaxtlarında da mövzu ilə bağlı görüşlər keçirməyi planlaşdırır. Monqolustandakı türk dövrünə aid abidələrin qazıntıları gələcəkdə də davam edəcək və etməlidir.



**“Nomqon-1” abidə kompleksi:** İnsan heykəli və balbal, 2018



**“Nomqon-2” abidə kompleksi:** Qazıntıdan əvvəl havadan görüntüsü, 2019

| | | |
|---|---|---|
|  |  |  |
| Kül tigin abidə kompleksindəki sunaq daşı | Bilgə xaqan abidə kompleksindəki sunaq daşı | "Nomqon-2" abidə kompleksindəki sunaq daşı |

| | | |
|---|---|---|
|  |  |  |
| Bilgə xaqan abidə kompleksindəki şir heykəli | **"Nomqon-2"** abidə kompleksindəki iki balası olan şir heykəli | |

<table>
<tr><td></td><td></td></tr>
<tr><td>“Nomqon-2” abidə kompleksində qazıntı zamanı tapılan xaqan heykəlinin başı, 2022</td><td>Kül tigin heykəlinin başı, Çexoslovakiya-Monqolustan ortak arxeoloji səfəri, 1958</td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td>“Nomqon-2” abidə kompleksində qazıntı zamanı tapılan xaqan heykəlinin alt hissəsi, 2022</td><td>Kül tigin heykəlinin alt hissəsi, Çexoslovakiya-Monqolustan ortak arxeoloji səfəri, 1958</td></tr>
</table>

| | | |
|---|---|---|
|  |  |  |
| Xaqan damğası,<br>balbal № 1 | Xaqan damğası,<br>balbal № 2 | Xaqan damğası,<br>balbal № 3 |

| | | |
|---|---|---|
|  |  |  |
| Xaqan damgası,<br>balbal № 4 | Xaqan damğası,<br>balbal № 5. | Xaqan damğası,<br>balbal № 16. |

| | |
|---|---|
|  |  |
| “Nomqon-2” yazılı abidəsi (I üzü) | “Nomqon-2” yazılı abidəsi (IV üzü) |

| | |
|---|---|
|  |  |
| “Nomqon-2” yazılı abidəsi (II üz) | “Nomqon-2” yazılı abidəsinin üst hissəsinin estampajlı görüntüsü (II üz) |

| | |
|---|---|
|  |  |
| “Nomqon-2” yazılı abidəsinin üst hissəsi (qədim türkcə mətn parçaları (II üz) | “Nomqon-2” yazılı abidəsinin üst hissəsinin estampajlı görüntüsü (II üz) |



“Nomqon-2” yazılı abidəsindəki soqdca mətn parçaları (III üz)



“Nomqon-2” yazılı abidəsindəki soqdca mətn parçalarının estampajlı görüntüsü (III üz)



“Nomqon-2” yazılı abidəsindəki brahmi hərfli mətn parçalarının estampajlı görüntüsü (IV-1 üz)



“Nomqon-2” yazılı abidəsindəki brahmi hərfli mətn parçalarının çəkimi (IV-1 üz)



“Nomqon-2” yazılı abidəsinin qazıntı zamanı tapılan tısbağa şəklində postamenti



“Nomqon-2” abidə kompleksi. Qazıntının havadan ümumi görüntüsü, 2022



"Nomqon-2022" birgə arxeoloji ekspedisiyası, 2022

*MƏLEYKƏ MİRZƏLİ (Azərbaycan)**

## ƏDƏBİYYAT


1. Bayar, Dovdoyn (2012). Moğolistanda Eski türklere ait yeni arkeolojik buluntular// Uluslararsı Türkçe Edebiyat Kültür Eğitim Dergisi Sayı: 1/1.
2. Jisl, L. (1960). Vyzkum Külteginova pamatnfku v Mongolske" Lidove Republice // Archeologicke Rozhledy, 12-1.
3. Kültegin (2022). Бітіктасы мәтіннің аудармалары: әзербайжан, қазақ, қырғыз, түрк, ттатар, тыва, моңғол, мажар, неміс, орыс, ағылшын, француз, корей, қытай тілдерінде. – Халықаралық Түркі академиясы: «Ғылым» баспасы, - 368бет. (Бас ред. Д.Қыдырәлі, жауапты ред. Н.Базылхан).
4. Баяр, Д. (2010). Новые находки археологических памятников древних тюрков в Монголии // Uluslararası Zeki Velidi TOĞAN ve Türk Kültürü Sempozyumu. 13-15 Ekim, yılı, Afyon Kocatepe Üniversitesi. (Bildiri olarak sunulmuştur).


* Məqaləni türk dilindən Azərbaycan dilinə çevirən: Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının magistrantı. E-mail: maleyka.mirzali@bsu.edu.az

5. Баяр, Д. (2014). Новые находки археологических памятников древних тюрков в Монголии // Баяр Д. Монголын дундад зууны археологийн судалгаа. Бүтээлийн эмхтгэл. III боть (2004-2010 он). Эрхэлсэн доктор (Sc.), профессор Д.Цэвээндорж, эмхтгэж хэвлэлд бэлдсэн Р.Мөнхтулга. - Улаанбаатар: «Удам соёл» хэвлэлийн компани,. -513х.
6. Кыдырәлі Д., Цэвээндорж Д., Энхтөр, А. Базылхан Н., Далантай С., Бөгенбаев Н., Буянхишиг Ц. (2019). «Номгон-2019» бірлескен экспедициясы археологиялық қазба зерттеулерінің ғылыми есебі. - Астана: Халықаралық түркі академиясы, Моңғолия Тарих, археология институты, 80 бет. қазақша, моңғолша.
7. Қазақстан тарихы туралы қытай деректемелері (2006). IV том. Әулеттік тарихи жылнамалар. 2-бөлім.- Алматы: Дайк-Пресс.– 480 б.
8. Монгол нутаг дахь түүх, соёлын үл хөдлөх дурсгал (2012). Historical and Cultural Immovable Properties in Mongolia. VIII дэвтэр. Архангай аймаг. (Зохиогч: Г.Энхбат, Б.Даваацэрэн, Р.Болд) -Улаанбаатар. Соёлын өвийн төв.
9. Монгол нутаг дахь түүх, соёлын үл хөдлөх дурсгал (2013). Historical and Cultural Immovable Properties in Mongolia. X дэвтэр. Архангай аймаг. (Зохиогч: Г.Энхбат, Г. Анхсанаа, Б.Даваацэрэн) -Улаанбаатар. Соёлын өвийн төв.
10. Мөнхтулга Р. (2019). Тоньюкукийн гэрэлт хөшөөний бичээсийн äšir хэмээх нэрийн тухай // Ази судлал. Олон улсын эрдэм шинжилгээний тавдугаар хурал. Volume V. - Ulaanbaatar.
11. Очир А., Одбаатар Ц., Эрдэнэболд Л., Анхбаяр Б. (2009). Номгоны түрэг дурсгалууд // Nomadic Studies. Нүүдэл судлал. 16.2019. –Улаанбаатар.
12. Сэр-Оджав, Н. (1979). Хүл Тегиний булшнаас олсон хүн чулууны толгой. // Studia Archaelogica. Tomus. I, fasc. 6. - Улаанбаатар.
13. Тоныкөк (2020). Бітіктасы мәтіннің аудармалары: әзербайжанша, қазақша, қырғызша, түркше, тываша, моңғолша, мажарша, немісше, орысша, ағылшынша, французша, қытайша. – Халықаралық Түркі академиясы: «Ғылым» баспасы,125бет. (Бас ред. Д.Қыдырәлі, жауапты ред. Н.Базылхан).
14. Цэвээндорж Д., Д.Кыдырали, Энхтөр А., Напил Б., Далантай С., Богенбаев Н., Буянхишиг Ц. (2019). Монгол улс-Олон улсын Түрэг академийн хамтарсан «Номгон» төслийн 2019 оны хээрийн шинжилгээний ажлын тайлан. -Улаанбаатар, 45х.
15. Шивээт улаан көне түрік ғұрыптық кешен. Археологиялық зерттеудің фотоальбомы, (2018). Астана: «Ғылым» баспасы, 272-б. (авторлық ұжымы). Энхтө
16. А. Номгоны хөндий дэх эртний түрэгийн онгон цогцолборууд. Археологийн хүрээлэнгийн гар бичмэлийн сан хөмрөг. 2001 он. -25 х.

*Дархан Хыдырали (Казахстан)*
*Алтангерелин Энхтор (Монголия)*
*Напил Базылхан (Казахстан)*
*Нурболат Богенбаев (Казахстан)*
*Церенхандин Буянхишиг (Монголия)*
*Гончигин Батболд (Монголия)*

# Комплекс памятника и надпись Гутлуг кагана

(первичный научный отчёт «Номгон – 2019, 2022» представителей Международной тюркской академии и Института археологии Академии наук Монголии)

## Резюме

Проводимые в 2019 и 2022 годах Международной тюркской академией и Институтом археологии Академии наук Монголии раскопки на равнине Номгон в регионе Хашат Сум Архангайского района Монголии привели к археологическим открытиям в девяти памятниках древнетюркского периода. Предполагается, что обнаруженный во время раскопок в комплексе «Номгон – 2» памятник был построен в честь основателя второго Восточного Гёктюрского каганата Ильтериш кагана (Гутлуг каган) – отца Бильгя кагана и Кюльтигина, правившего в 682-692 годах.

В результате раскопок в древнем комплексе были найдены головная и туловищная части статуи кагана, скульптурные фигуры двух баранов, льва с детёнышами, черепицы, кирпичи, камень сунак с отверстием посередине и клеймо («ашир») рода кагана. Обнаруженная во время раскопок часть письменного памятника стала основной находкой, открытием, значимым для мировой тюркологии. Это первая надпись, найденная при проведении исследований в данном регионе, что также имеет большое значение. В верхней части надписи изображены два волка и цветок в виде лотоса. Выявлено, что тексты написаны на трёх разных языках – древнетюркском, согдийском и брахми. Среди находок есть и статуя черепахи в качестве постамента памятника.

**Ключевые слова:** *Гутлуг каган, Ильтериш каган, древнетюркское письмо, согдийское письмо, письмо брахми, письменный памятник, надпись, комплекс памятника, ритуальный комплекс, статуи льва и барана, камень сунак, постамент в виде черепахи, черепицы, кирпичи.*

*Darhan Kydyrali (Kazakhstan)*
*Altangerelin Enhtor (Mongolia)*
*Napil Bazylkhan (Kazakhstan)*
*Nurbolat Bogenbayev (Kazakhstan)*
*Tserenkhandin Buyanhishig (Mongolia)*
*Gonchigiin Batbold (Mongolia)*

# QUTLUG KHAGAN MONUMENTAL COMPLEX AND WRITTEN INSCRIPTION

(Preliminary scientific report of the joint staff of the Institute of Archeology of the International Turkic Academy and the Mongolian Academy of Sciences "Nomgon-2019, 2022")

## Abstract

The Joint Staff of the International Turkic Academy and the Institute of Archeology of the Mongolian Academy of Sciences carried out excavations in 2019 and 2022 in the Nomgon valley of the Khashat Sum region of the Arkhangai region of Mongolia and made archaeological discoveries in nine complexes of monuments of the ancient Turkic period. It is believed that the monument complex, which appeared during the excavations in the "Nomgon – 2" complex, was formed in honor of the founder of the Second Eastern Gokturk Khaganate, who ruled in 682-692, Ilterish Khagan (Qutluq Khagan), the father of Bilge Khagan and Kultigi.

During the excavation works, various finds such as the head and lower part of a statue in the form of a Khagan, two rams, a statue of a lion made together with their cubs, roof tiles, bricks, sunag stone with a hole in the middle and the stigma of the "Ashir" (Ashina) Khagan generation were revealed from the monument complex. The main feature of this discovery, which makes it important for Turkology world, is a piece of written monument found from the excavation site. This is significant in that it is the first inscription found in studies carried out in the region. Two wolves and lotus-shaped flowers are depicted at the top of the inscription. Texts in the inscription were written in three different languages - old Turkish, Sogdian and Brahmi. The turtle statue, which is understood to be the pedestal of the monument, is also among the finds

**Keywords:** *Qutlug Khagan, Ilterish Khagan, ancient Turkic inscription, sogd inscription, brahmi inscription, written monument, inscription, monumental complex, ritual complex, statues of lions and Aries, sunag stone, turtle pedestal, tiles, bricks.*